**L.M.BAYRAMOVA**
*dissertant*
*e-mail: lala.bayramova2013@mail.ru*
**:https://orcid.org/0009-0001-1273-1869**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.247**

# FƏNLƏRARASI İNTEQRASİYA TƏLİM-İDRAK PROSESİNİN FORMA, METOD VƏ MƏZMUNUNDA ƏKSİNİ TAPAN PEDAQOJİ KATEQORİYADIR

***Xülasə.*** *Tədqiqat nəticəsində fənlərarası inteqrasiyanın təlim-idrak prosesində özünü göstərən pedaqoji kateqoriya olduğu müəyyənləşdirilir. Göstərilir ki, ibtidai sinif şagirdlərinin idrak fəaliyyətinin inkişafı üçün təlim fəaliyyətini aktivləşdirən problemli təlimdən, didaktik oyunlardan, yaradıcı tapşırıqlardan istifadə edən dərslərin böyük əhəmiyyəti vardır. Onun səmərəliliyini təlimə münasibət haqqında məlumat, oyun fəaliyyətinin təhlili, şagirdlərin yaradıcılıq qabiliyyətinin üzə çıxarılması göstərəcəkdir (emosional yaddaş, yeni təxəyyül, obrazlı-assosiativ təfəkkür).*

***Açar sözlər:*** *fəndaxili inteqrasiya, fənlərarası inteqrasiya, fənnüstü inteqrasiya, təlim-idrak fəaliyyəti, qohum fənlər*

Pedaqogika nəzəriyyəsinin inkişaf tarixindən məlumdur ki, sovet hakimiyyətinin ilk illərində əmək məktəbləri təlimlə əməyin üzvi surətdə birləşməsi prinsipi əsasında yaradılmışdır ki, bu əmək məktəbləri nəzəriyyəsinin işlənilib hazırlanmasına, xüsusi tədris planı və təhsil proqramı üçün ümumi prinsip və yanaşmalarının müəyyənliyinə və həyata keçirilməsinə köməklik etdi. Yeni proqramlarda istehsalat fəaliyyəti ənənəvi məktəbdə müxtəlif tədris fənləri üzrə təqdim olunan dərsin məzmunu ilə bağlı əsas inteqrasiyaedici amil kimi çıxış edirdi. İbtidai məktəbdə təlim kompleks yanaşma metodu əsasında qurulmuşdu, tədris prosesi təhsilin üç sahəsini əhatə edirdi: "İnsan və təbiət", "Əmək", "İctimaiyyət". Kompleks yanaşma metodu (yaxud da layihələr metodu) müxtəlif fənn sahələri üzrə ümumi məsələlərin inteqrasiyasını nəzərdə tuturdu. Bu, inteqrasiya əsaslı təlim prosesinin təşkilinin ilk praktik təcrübəsi idi.

Təlimlə əməyin məqsədəuyğun şəkildə birləşdirilməsi ideyası hələ XVIII əsrin 70-ci illərində Qərbi Avropada İsveç pedaqoqu İ.H.Pestalotsinin pedaqoji təcrübəsində öz parlaq əksini tapmışdı ("Yoxsullar üçün müəssisə"). Məhşur Amerika filosofu və pedaqoqu C.Dyui tərəfindən məktəb və həyatın üzvi əlaqəsi prinsipinə əsaslanan əmək məktəbi nəzəriyyəsi işlənilib hazırlandı.

1930-50-ci illər arasında inteqrasiya yalnız dərsdənkənar işlərdə – dərnəklərdə, texniki və gənclər stansiyalarında həyata keçirilirdi. Müxtəlif fənlərə dair biliklər təbii surətdə uşaq yaradıcılığı prosesinə inteqrasiya olunurdu.

1950-80-ci illərdə fənlərarası əlaqəyə əsasən fənlər və texniki-peşə üzrə biliklər arasındakı əlaqələrin möhkəmləndirilməsi aspektindən yanaşılırdı. 1950-80-ci illərdə əmək məktəbi fənlərarası əlaqələr arasındakı ziddiyyətindən imtina edir. İnteqrasiya bu mərhələdə fənlər üçün ən yaxşı didaktik vasitəyə çevrilir. 1980-ci illərdə fənlərarası əlaqəyə didaktikanın prinsipi kimi baxılır.

İnteqrasiya fundamental anlayış statusunu 80-ci illərdə qazanır: "İnteqrasiya – sovet insanının hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılması üsuludur" [5]. 1980-ci illərdə isə inteqrasiya aparıcı didaktik prinsip statusunu əldə edir [1].

Təhsilin inteqrasiyası ideyası getdikcə özünü daha çox göstərir və pedaqoqları onun həyata keçirilməsinin səmərəli yollarını axtarmağa təhrik edir.

İndiki mərhələdə bu sahədə bir sıra müxtəlif yanaşmalar və istiqamətlər yaranmışdır: fənlərarası əlaqələrin köməyi ilə inteqrasiya; müxtəlif fənlərə aid oxşar mövzuların eyni vaxtda tədrisinin prinsipi üzrə tematik planlaşdırma; müxtəlif fənlər üzrə məlumatları birləşdirən yeni tədris kurslarının işlənilib hazırlanması və s. Bütün bunlar inteqrasiya probleminin özlüyündə qeyri-adi aktuallığa malik olduğunu göstərir və onun optimal yollarının axtarışına köməklik edir.

Elmdə fəndaxili, fənlərarası və fənnüstü inteqrasiyanı fərqləndirirlər. Xüsusilə elmlərin inteqrasiyasına həsr olunmuş fəlsəfi tədqiqatlarda qeyd olunur ki, sintetik elmlərin inteqrasiyaedici funksiyası heç də bir elmin digərləri tərəfindən zəbt olunması deyildir. Bu inteqrasiyaedici funksiya onların dərin, daima güclənən qarşılıqlı təsir və qarşılıqlı əlaqəsini təmsil edir (müstəqil elmlərə nisbətdə).

A.Y.Danilyuk, L.N.Baharova "inteqrasiya" anlayışının mahiyyətini araşdırarkən onu diferensiallaşma prosesi ilə birgə baş verən elmlərin əlaqəsi, bir-birinə yaxınlaşması prosesi kimi şərh edirlər. İnteqrasiya təlimin keyfiyyətcə yeni pilləsində fənlərarası əlaqənin yüksək formasını təqdim edərək, yeni tam "bilik monolitinin" yaradılmasına töhfə verir [2, s.48].

Deyilənlərdən belə nəticə çıxır ki, alimlərin fikrincə, inteqrasiya təlimin fənn sistemini inkar etmir. O, təlimin təkmilləşdirilməsinin, çatışmazlıqların aradan qaldırılmasının mümkün yoludur və fənlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın dərinləşdirilməsinə yönəlmişdir. Problemə bu cür yanaşma tədqiqatımız üçün çox vacib olan inteqrasiya və diferensiasiya arasındakı qarşılıqlı əlaqənin başa düşülməsinə kömək edir.

Təlim və tərbiyənin inteqrasiyası təbii yolla şagirdlərdə təbiət, cəmiyyət, orada insanın rolu haqqında vahid təsəvvürlərin yaradılmasına səy göstərməkdən irəli gəlir. İctimai-elmi məlumatların artan axını və ənənəvi üsullar istər-istəməz dərsliklərin məzmununu çətinləşdirir. Bu, materialın mənimsənilməsinin sabitliyini pozur, şagirdlər həddindən artıq mənimsəmədikləri məlumatlarla yüklənirlər. Belə bir şəraitdə bir çox pedaqoq-tədqiqatçıların inteqrasiyada axtardıqları təlim-tərbiyənin məzmununun yenilənməsi məsələsini qeyri-ənənəvi yolla həll etmələri qanunauyğundur. Həmçinin ibtidai məktəbdə inteqrasiyanın həyata keçirilməsi təbii haldır. Bunun üçün əlverişli imkan vardır: bir müəllim çoxlu sayda fənləri tədris edir.

Bu gün inteqrasiya prosesi ibtidai məktəbdə ənənəvi təhsilə nüfuz edir. Bunlar daxili məzmununa görə inteqrasiya olunmuş tədris fənləridir: təbiət elmləri, ritmika, dünya bədii mədəniyyəti. İbtidai siniflərdə inteqrasiyaedici vəzifəni şagirdlərə yazmaq, oxumaq, riyaziyyat və daha çox şeylər öyrədən müəllimin özü həyata keçirir. Müəllim bu funksiyanı öz gücü və imkanları daxilində reallaşdırır.

Beynəlxalq təcrübə göstərir ki, bir çox xarici ölkələrin ibtidai məktəblərində inteqrasiyanın nisbətən ən səmərəli forması inteqrasiyalı kurslar və bir müəllim tərəfindən müxtəlif fənlərin tədrisidir (Yaponiya, Polşa, Bolqariya, Çexiya, Slovakiya, İngiltərə və b.). Belə ki, məsələn, oxu, yazı, şifahi nitq "Sözün incəsənəti" adlı kursda birləşdirilib. Proqramın məqsədinə görə tədris fənlərinin inteqrasiyasının forma və metodlarının axtarışı xarici ölkə didaktlarının tədqiqatlarının aparıcı istiqamətlərindən biridir. Sevre (Fransa) Beynəlxalq pedaqoji araşdırmalar mərkəzində fənlərarası əlaqələri inkişaf etdirmək üçün xüsusi tədqiqatçılar qrupu yaradılıb. Məsələnin həlli adətən şagirdin bir insan və vətəndaş kimi hüquq və vəzifələrini şüurlu şəkildə icra etmələri üçün zəruri olan "etibarlı bilikləri" özündə birləşdirən inteqrasiya olunmuş kursların ("Sosial-iqtisadi elmlər", "Humanitar elmlər") yaradılması üzərinə düşür.

Pedaqogika və ideologiyanı yaxınlaşdırmaq məqsədilə inteqrasiyanın təşkili xüsusilə Almaniya məktəblərində inkişaf etdirilmişdir. Vətən tarixi, ana dili, din kimi fənlərin ətrafında birləşdirilmiş tədris materialları şagirdlərdə ideya-siyasi baxışların formalaşdırılmasına xidmət edir. Almaniyanın yeni tipli məktəblərində bir çox fənlər ənənəvi məktəblərdə olduğu kimi kompleks xarakter daşıyır: "Təbiət elmləri", "Texniki-iqtisadi", "Vətəndaşlıq", "İctimai-

siyası" və s. Almaniyada ibtidai məktəbdə əsas fənn tarix, coğrafiya, təsviri incəsənət və musiqiyə dair bilikləri birləşdirən ölkəşünaslıq fənnidir. Müasir Amerika məktəblərində də təlimin "siyasiləşdirilməsi" məqsədilə biliklər inteqrasiya olunur. Təhsil sahəsinin humanist nümayəndələri (B.Saymon, D.Fitelson, K.Rocers və b.) insanın cəmiyyətdə kompleks təliminin həyata keçirilməsi ideyası ilə çıxış edirlər. ABŞ və İngiltərədə məktəblərdə eksperiment kimi təbiətin mühafizəsi üzrə inteqrasiyalı kurslar inkişaf edir. Şagirdlərin peşəyönümünü gücləndirmək üçün "İqtisadiyyat", "Həyatın planlaşdırılması", "Sosial yaranış", "İctimai-texniki biliklər", "İxtisas" kimi inteqrasiyalı kurslar yaradılmışdır.

İnteqrasiya ənənəsi yalnız fənn proqramlarının və fənn üzrə biliklərin strukturuna daxil olmur, o həm də təlimin təşkili formalarını ("inteqrasiya olunmuş gün", "kompleks məşğələlər", "kombinə olunmuş dərslər", "tədris-tədqiqatçılıq mərkəzləri"), təlim-tərbiyə müəssisələrinin tiplərini də əhatə edir ("İngiltərədə məktəb birləşmələrini", "Almaniyada ümumi məktəbləri").

İnteqrasiya edilmiş dərslər əsasən ibtidai siniflərdə tətbiq olunur. O, P.Kuzine, S.Frene, D.Qilford, C.Holt və başqalarının azad tərbiyə şəraitində şagirdlərin əqli qabiliyyətlərinin inkişafı ilə əlaqələndirilir. İngiltərənin elementar məktəblərində isə inteqrasiyalı təlimə şagird qruplarında üstünlük verilir (5-7 yaş). İbtidai məktəbin II pilləsində daha çox fənlərin təliminə üstünlük verilir. Lakin təlimin mərkəzində "Dilin incəsənəti", "Təbiət elmləri", "İctimaiyyət" kimi inteqrasiyalı kurslar durur. Bəzi ölkələrin yuxarı siniflərində müasir elmin mürəkkəb problemlərini əhatə edən inteqrasiyalı kurslar tədris olunur. Bu kursların vəzifəsi – şagirdləri universitetdə elmin fəlsəfi və metodoloji məsələlərini qavramağa hazırlamaqdan ibarətdir.

Ənənəvi fənn təlimindən fərqli inteqrasiyalı təlim sisteminin tətbiqi vahid dünyagörüşünə malik, öz biliklərini tətbiq etməyi bacaran, müxtəlif problemlərin həllinə qeyri-ənənəvi yanaşan erudisiyalı (hərtərəfli) şəxsiyyətin formalaşmasına gətirib çıxarır.

Müasir ibtidai məktəbdə fənn təlimi sistemi əsas yer tutur. Ona görə də, fənlərarası əlaqə məsələsi mühüm əhəmiyyət kəsb edən problemlər sırasına daxil edilə bilər. Fənlərarası əlaqələr ideyasının inkişafında inteqrasiya və fənn üzrə biliklərin koordinasiyası kimi iki istiqamət özünü göstərir [5].

İnteqrasiya-vahid, bütöv, bölünməz olanın yaradılması və nəticəsi prosesidir. Təlim zamanı, o, kompleks tədris məsələ və problemlərin üzə çıxarılmasında elmin əsaslarını ümumiləşdirmək, sintez olunmuş hər hansı bir kursda müxtəlif tədris fənninə dair elementləri birləşdirmək yolu ilə həyata keçirilə bilər [3, s.184].

Koordinasiya-qohum fənlər üzrə ümumi anlayışların şərhinə, onların öyrənilmə müddətinə dair tədris proqramlarının vahidliyidir, yəni başqa sözlə dar mənada biliklərin inteqrasiyasına köməklik edən fənlərarası əlaqədir. İnteqrasiyalı təlim ayrı-ayrı fənlər və qohum fənlərin arasında koordinasiya yaradır. Burada fənlərarası əlaqə aparıcı ictimai-elmi ideyalarla birgə fənnə dair biliklərin əsasında idrak obyektini kompleks şəkildə nəzərdən keçirməklə bağlıdır [4, s.78].

İnteqrasiyalı təlimin fənn sistemindən fərqi ondan ibarətdir ki, fənn sisteminin tədqiqat obyektini vahid fənn proqramlarının koordinasiyası prinsipindən irəli gələn genişləndirilmiş idrak sahəsi təşkil edir. İdrak dairəsi nə qədər geniş və dolğun olarsa, elmi biliklər bir o qədər diferensiasiyaya məruz qalar və müxtəlif sahələrdə birləşərlər. İnteqrasiyalı təlim prosesinin strukturu-onun həyata keçirilən məzmununun mərhələlər ilə xüsusi uyğunluğudur. Ona görə də məzmunun formalaşmasının hansı səviyyəsində biliklərin inteqrasiyasını aparmaq lazım olduğunu seçmək vacibdir. Tədris mövzuları səviyyəsində inteqrasiyanın müəyyənləşdirilməsi və təşkilini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Bununla belə, təlim prosesində inteqrasiyanın həyata keçirilməsi təcrübəsi onu göstərir ki, çoxlu sayda dərsləri əhatə edən tədris mövzuları səviyyəsində inteqrasiyanın nəzərdən keçirilməsi hər bir dərsə münasibətdə onun haqqında aydın təsəvvür yaratmır. Fikrimizcə, tədris proqramları sənədləşdirilərkən inteqrativ əlaqələrin qurulmasını tədris mövzuları səviyyəsində nəzərdən keçirmək məqsədəuyğundur. Təlim prosesində inteqrasiyanın uğurla həyata keçirilməsi üçün ona yalnız tədris

mövzuları səviyyəsində deyil, həmçinin ayrılıqda hər bir fənnə dair mövzular səviyyəsində də yanaşmaq müvafiqdir.

Elmi pedaqoji ədəbiyyatda inteqrasiyanın müxtəlif növlərini ayırd edirlər. Y.S.Tyunnikovanın [6] tədqiqatlarında inteqrasiya prosesinin müxtəlif səviyyələri daha çox məqsədəuyğunluq, vahidlik, sistemlilik əldə etmək baxımından inteqrasiyalı məzmunun (tədris fənni və yaxud təlim prosesini) dəyişdirilməsi dərəcəsi kimi xarakterizə olunur. Müəllifin qeyd etdiyi kimi, inteqrasiyanın çoxlu sayda səviyyələrini müəyyən etmək pedaqoji prosesdə incə dəyişikliklərin müəyyən olunub, qiymətləndirilməsi işini yalnız çətinləşdirə bilər. O, inteqrasiyanın aşağıdakı səviyyələrini müəyyən etmişdir.

*aşağı* – modernləşdirmə səviyyəsi. Tədrisin ümumi vəziyyətini dəyişdirməyən və bir fənnin biliklərinə uyğun olan;

*orta* – kompleksləşdirmə səviyyəsi. Bu səviyyədə ilkin məzmunda dəyişikliklərə iki və ya daha çox fənn əsasında nail olunur ki, bu zaman didaktik məzmunun həcmi tədris fənlərinin əhatə dairəsindən kənara çıxır;

*yüksək* – yeniliyin vahid sintez səviyyəsi. Bu səviyyədə birinci halda inteqrativ proses əvvəllər müəyyən edilmiş məzmunun köklü şəkildə yenidən qurulması ilə, digər halda isə didaktik məzmunun sintezi tədris fənlərinin əhatə dairəsindən kənara çıxmaqla müşayiət olunur.

Beləliklə, tədris materialının məzmunu üçün inteqrasiya səviyyələrinin işlənilib hazırlanması şagirdlər tərəfindən tam şəkildə müxtəlif biliklərin seçilməsi və mənimsənilməsini təşkil etməyə imkan verir. Təhsilin məzmununu müəyyən edən prinsiplərin seçilməsinə dair müxtəlif yanaşmalar mövcuddur ki, inteqrasiya işlənilib hazırlanarkən bütün bunlar nəzərə alınmalıdır. Nəhayət, tərəfimizdən işlənib hazırlanmış aşağıdakı prinsiplər özünü doğrultmuşdur:

– sosial-iqtisadi tələbata uyğun təhsilin məzmununun bütün elementlərində və layihələşdirilməsinin bütün səviyyələrində əks olunan prinsip;

– təhsilin məzmununu layihələşdirərkən təlimin forma, üsul və vasitələri ilə tədris materialının əlaqələndirilməsini nəzərdə tutan məzmun və prosessual istiqamətlərin hesaba alınması prinsipi;

–müxtəlif səviyyələrdə formalaşdırılan təhsilin məzmununun vahid struktur prinsipi: nəzəri anlayışlar, tədris fənləri, tədris materialı, pedaqoji fəaliyyət, şagird şəxsiyyəti.

İnteqrasiyalı təlim bilavasitə inteqrativ prosesdə tətbiq olunan metodlar, priyomlar, vasitələr toplusu vasitəsilə həyata keçirilir.

***İşin elmi nəticəsi.*** Azərbaycan dili, riyaziyyat, həyat bilgisi və musiqi fənləri üzrə praktiki iş və hazırlanmış inteqrativ kurs didaktikanın məqsədinə maneə olmur və təlimə marağın artırılmasına, idrak fəallığının inkişaf etdirilməsinə köməklik edir.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, fənlərarası inteqrasiya kontekstində şagirdlərin idrak fəaliyyətinin sürətləndirilməsi üçün didaktik model işlənib hazırlanmışdır.

***İşin praktik əhəmiyyəti.*** İnteqrasiyaedilmiş dərslərdə kiçikyaşlı məktəblilərin idrak aktivliyinin təşəkkülü və inkişafından ötrü ibtidai sinif müəllimləri üçün pedaqoji və metodiki tövsiyələr hazırlanmışdır.

## Ədəbiyyat


1. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi / M.Mehdizadə. – Bakı: Maarif, – 1982. – 382 s.
2. Бахарева, Л.Н. Интеграция учебных занятий в начальной школе на краеведческой основе // Начальная школа, – 2011, № 8. – с.8-51.
3. Гурин, В.Е. Воспитание творческой личности /В.Е. Гурин // Совершенствование образовательных процессов: Межвуз. сб. тр. Краснодар: Изд-во Куб ГТУ, – 2015. – с.25-30.
4. Депенчук, Н.П. Особенности интегративного процесса в науке и фермы его реализации / Н.П. Депенчук // Единство и многообразие мира, дифференциация и интеграция. – М., – 1981. – с.77-78.

5. Зверев, И.Д. Медпредметные связи в современной школе. 3-ое изд. /И.Д.Зверев, В.Н. Максимова. – М.: Педагогика, – 2016. – 160 с.
6. Тюнников, Ю.С. Методика выявления и описания интегративных процессов в учебно-воспитательной работе СПТУ / Ю.С.Тюнников. – М.: АО Россия, – 2018. – 147 с.

**L.M.Bayramova**

**Intersubject Integration is a Pedagogical Category Reflected in the form, Method and Content of the Educational and Cognitive Process**

***Summary***

As a result of the study, it was determined that interdisciplinary integration is a pedagogical category that manifests itself in the educational and cognitive process. It is shown that lessons that use problem-based learning, didactic games, creative tasks that activate educational activity are of great importance for the development of cognitive activity of primary school students. Its effectiveness will be demonstrated on the basis of information about the attitude to learning, analysis of game activities, disclosure of creative abilities of students (emotional memory, new imagination, figurative-associative thinking).

***Key words:*** *intra-subject integration, inter-subject integration, supra-subject integration, educational and cognitive activity, related subjects*

**Л.М.Байрамова**

**Межпредметная интеграция – педагогическая категория, отражающаяся в форме, методе и содержании учебно-познавательного процесса**

***Резюме***

В результате исследования определено, что междисциплинарная интеграция – педагогическая категория, проявляющаяся в учебно-познавательном процессе. Показано, что большое значение для развития познавательной активности учащихся начальных классов имеют уроки, использующие проблемное обучение, дидактические игры, творческие задания, которые активизируют учебную деятельность. Ее эффективность будет проявлена на основе информации об отношении к учению, анализа игровой деятельности, раскрытия творческих способностей учащихся (эмоциональной памяти, нового воображения, образно-ассоциативного мышления).

***Ключевые слова:*** *внутрипредметная интеграция, межпредметная интеграция, надпредметная интеграция, учебно-познавательная деятельность, смежные предметы*

*Rəyçi: ped.f.d., dos. T.Ə.Nəbiyeva*

*Redaksiyaya daxil olub: 02.05.2025*